# MÜQƏDDƏS YERLƏRİMİZ

Onlar-pirlər, ocaqlar, türbə, imamzadə və təkhiyyələr haqqında nə bilirik?

İnsanların yer üzərində mövcudiyyatından indiyədək, onların dinə, müqəddəs yerlərə inancları, ibadət etmələrinə maraqlarının səbəbləri barədə çoxsaylı məlumatlar, salnamələr mövcuddur.

Çoxları belə hesab edir ki, pir, ocaq, türbə və s. bu qəbil müqəddəs inanc yerləri yalnız İslam dininin bərqərar olmasından sonra mövcud olmağa başlamışdır. Lakin bu heç də belə deyildir. İslama qədərki dövrlərdə də insanlar özlərinə sitayiş yerləri, müqəddəs ocaqlar və inanc yerləri təşkil edərək sitayiş obyekti kimi onlardan istifadə etmişlər.

İslama qədərki dövrlərdə insanlar ağacdan bütlər yonub müqəddəs saydıqları məkanda bunları yerləşdirərək ona sitayiş etmişlər. Oda sitayiş etmək, sonralar Zərdüşt peyğəmbər vasitəsilə atəşpərəstliyin təbliği və yayılması, bəşəriyyət bina olandan özlərinə sitayiş mənbəyi icad etmələri tarixi zərurət olmuşdur.

Azərbaycanın demək olar ki, əksər yerlərində pir, ocaq, türbə, imamzadə, təkhiyyə və s. inanc yerlərinə rast gəlmək mümkündür.

## Pir nədir ?

«Pir» sözünün farscadan mənası «qoca» deməkdir. İndinin özündə də qoca, ixtiyar yaşlı kişilərə «pirani» deyə müraciət olunur. «Pir» sözünün müqəddəs anlamı isə qədim Misir dilində də vardır. Tədqiqatçılarımız «piramida» sözünün əsasında «preme» sözünün əsasının dayandığını göstərərək, bu sözü «müqəddəs yüksəklik» kimi də tərcümə edirlər. Akademik Ziya Bünyadovun tədqiqatlarında «pir» sözü əslində «yaşlı», «qoca» mənasında olub, ərəb dilindəki «Şeyx» sözünün müqabilidir. Sufi təriqətində pir, Allah yolunda gedilən qorxulu və təhlükəli yerləri bilib, müridə doğru yolu və faydalanacağı və ya zərər görən şeyləri göstərən bir kimsədir, bundan dolayı «piri-mürşid» anlamını da verir. Sufilərə görə pirlər hər baxımdan tərtəmiz, Allahın sevimli bəndəsi olub, Allahın bəndələrini, bəndələri də Allahı sevdikləri kimi Peyğəmbərlərin naibi və qövmün nəbisi kimi qəbul edilir.

Pir sözünün müqəddəs anlam daşıması əcnəbi dillərdə də ifadə olunur. Belə ki, Pirallahı adası hələ Sovetlər birliyinin mövcud olduğu illərdə «Artyom»- adlandırılmazdan əvvəl buranı ruslar- «Svyatoy»- yəni «müqəddəs»- kimi adlandırardılar ki, indinin özündə də köhnə rus xəritələrində Pirallahı- «Svyatoy» kimi göstərilir.

Azərbaycanın demək olar ki, əksər rayonlarında pirlərə rast gəlmək olar. Pirlər əsasən Astara, Lənkəran, Lerik, Masallı rayonlarının ərazisində daha çoxdur. Astara rayonunda olan Seyid Əhməd piri, Seyid Cəmaləddin piri, «Pisıvoselo», Seyid Kərim, Piri hacı, Piri-Sübhi-Saleh, Pirbılınd, Piri-həbib və başqa pirlər vardır ki, indinin özündə də bu pirlərə «şəfa ocağı»-müalicə ocağı kimi baxırlar. Maraqlı burasıdır ki, pirlər adətən müxtəlif növlü endemik ağac növləri əhatəsində yerləşir. Belə ağaclardan ən qədimi şümşaddır ki, Azərbaycanın cənub bölgəsində bu ağaca müqəddəs varlıq kimi indinin özündə də sitayiş olunmaqdadır. Tədqiqatçı A.K.Əkbərov özünün «Azərbaycan arxeologiyası və etnoqrafiyasına dair tədqiqatlar» adlı əsərində ağac mifindən bəhs edərək qeyd edir ki, azərbaycanlılar ağacların, meşələrin müqəddəsliyinə inanmış, onların şərəfinə qurban kəsmişlər. /Bax: həmin əsər-Bakı, 1960, səh.216./

Azərbaycanlılar inanmışlar ki, müqəddəs ağac/dünya ağacı/övlad verir, uşaq doğur. İndinin özündə də Azərbaycanın cənub zonasında «bar verən ağacı kəsməzlər» kəlamı öz aktuallığını itirməmişdir. Ruzi ağacı sayılan əncir ağacını, üzüm tənəyini və qoz ağacını kəsməyə indi də cürət edilmir. İxtiyar yaşlı kişilər, piranilər uşaqlara söyləyirlər ki, əncir, üzüm, qoz və digər bar verən ağacları kəsəndə ağac mütləq ağlayır. Bu doğrudan da belədir. Çünki, sadalanan bu ağlacları kəsərkən, ağacdan şirə süzülür...

Azərbaycanda «Pir» sözü ilə başlanan müxtəlif rayonlarda kənd, oba, qəbiristanlıq, xanəgah, qoruq, dağ, təpələr, yaşayış yeri, türbə, məscid, ocaq, körpü, hətta qalalar da vardır. Buna misal olaraq Pirhəsənli /Ağsu rayonunda kənd/, Piral/Qusar rayonunda kənd/, Pirqulu qoruğu /Şamaxı və Ağsu rayonu ərazisində yerləşir/, Pirqulu oba / Xaçmaz rayonunda kənd/, Pirdirəki /Şamaxı şəhərindən şimalda 1054 m yüksəklikdə olan dağ, Pirembel /Yardımlı rayonunda kənd/, Pirəbədil / Dəvəçi rayonunda kənd/, Pirəzə/Ağdaş rayonunda kənd/, Pirəküşkül / Bakı ətrafında yaşayış yeri», Pirəli təpələri / Qusar rayonu ərazisində Samur-Abşeron kanalının solunda erkən orta əsr /4-8-ci əsrlər/ yaşayış yeri, Piresora / Lerik rayonunda kənd/, Pirəhmədli / Füzuli rayonunda kənd/, Pirə-Şərif/Qəbələ rayonunda yerli əhali bura «Pirəşərif baba» deyir/, burada abidələr kompleksi də var, Pirili / Qazax rayonunda kənd/, Pirili / Kürdəmir rayonunda kənd/, Pirkənd / Ucar rayonunda kənd/, Pirmərdəkan türbəsi/ Şamaxı rayonunun Göylər kəndində yerləşən xanəgah tipli abidələr kompleksi/, Pirsaat/ İsmayıllı, Şamaxı və Salyan rayonlarının ərazişindən axan çay adı/, Pirsaat çay xanəgahı / XIII-XIV əsrlərdə tikilmiş bu ziyarətgah Pirsaat çayı sahilində yerləşir/, Pircahan/ Laçın rayonunda kənd/, Pirşağı/ Bakıda qəsəbə adı–burada XVII əsrə aid türbə də mövcud olmuşdur/göstərmək olar.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli Qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası ərazisində Dövlət Mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələri əhəmiyyət dərəcəsinə görə Bölgüsü ilə «Pir» sözü ilə başlanan və ya bu adla bağlı olan bir sıra abidələr müvafiq inventar nömrələri il Dövlət qeydiyyatı ilə mühafizəyə götürülmüşdür. Bunlar «Ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsi» kimi Gədəbəy rayonunun Qumlu kəndindəki tunc dövrünə aid olan «Pir qalası», Qəbələ rayonunun Bayramkoxalı kəndindəki I minilliyə aid «Pirtəpələr yaşayış yeri», Lerik rayonunun Ordaxal kəndində yerləşən XV əsrə aid «Baba Pirəli qəbiristanlığı», Neftçala rayonunun Calud kəndindən 500 m şimalda, Calud dağının ətəyində yerləşən «Pir», Siyəzən rayonunun Beşbarmaq dağı arxasında yerləşən, VII əsrə aid "Xızırzində piri», Şamaxı rayonunun Göylər kəndində yerləşən "XII əsrə aid" «Pir Mərdəkan Xanəgahı» Şəmkir rayonunun Atabəy kəndindəki «Pir», Yerli Əhəmiyyətli tarix və mədəniyyət abidəsi kimi Bakının Əzizbəyov rayonu Şağan qəsəbəsində yerləşən, 1320-ci ilə aid «Pirqulu türbəsi», Sabunçu rayonu Maştağa qəsəbəsində yerləşən XVIII əsrə aid «Pirşad məscidi» , Ağsu şəhərindəki «Pir Bəxtiyar türbəsi», Astara rayonu Piyəkənərü kəndindəki «Piyəjenəpard» körpüsü, Yardımlı rayonunun Allar kəndindəki «Baba Pirəli türbəsi», həmin rayonun Yollağac kəndindəki «Pirackűs türbəsi», Laçın rayonunun Qarıqışlaq kəndindəki «Dəmirovlu Pir məbədi», Masallı rayonunun Şıxlar kəndindəki orta əsrlərə aid «Pirzəba türbəsi», Babək rayonunun Yaycı kəndindəki XIX əsrə aid «Pirəli məscidi», Astara rayonunun Cəpək kəndindəki orta əsrlərə aid «Pirəbdülqasım qəbiristanlığı», Yardımlı rayonunun Ostayır kəndindəki XIV-XVII əsrlərə aid «Piraşka yaşayış yeri», Samux rayonu, Poladlı kəndindən cənub-şərqdə yerləşən, orta əsrlərə aid «Pir xanəgahı», Samux rayonunun Çoban Abdallı kəndində yerləşən, XVII əsrə aid «İlan piri-ocaq», Şamaxı rayonunun Göylər kəndindəki, orta əsrlərə aid «Pir körpüsü»nü göstərmək olar.

***Dövlət mühafizəsinə götürülmüş bu qəbil abidələrdən əlavə Azərbaycan Respublikasının ərazisində mövcud olan pirlərin aşkarlanması üzərində tədqiqat işləri bu gün də davam etdirilməkdədir.***

**Əfqan Şəfiyev,**
**YUNESKO-nun beynəlxalq muzeylər şurasının həqiqi üzvü**